# Qarabağın hava qapısı




## Füzuli Beynəlxalq Hava Limanı bölgədə turizmin inkişafına töhfə verəcək

***İşğaldan azad olunmuş torpaqlarda quruculuq işləri bu gün də sürətlə davam edir, yeni yollar çəkilir, su elektrik stansiyaları tikilir, düşmən tərəfindən dağıdılmış infrastruktur yenilənir. Müharibə başa çatandan dərhal sonra tikintisinə başlanılan və tez bir zamanda istifadəyə verilən obyektlərdən biri də Füzuli Beynəlxalq Hava Limanıdır...***

Füzuli rayonu 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və işğal dövründə şəhər bütünlüklə dağıdılmışdı. 2020-ci il oktyabrın 17-də İkinci Qarabağ müharibəsi zamanı Füzuli şəhəri düşməndən azad edilmişdir.

Onu da qeyd edək ki, Füzuli şəhərinin işğalından əvvəl burada yerli əhəmiyyətli hava limanı mövcud idi. Təəssüf ki, ermənilər onu da xarabalığa çevirmişdilər. Köhnə aeroportun yerində tikilən Füzuli Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının inşası ilə bu sahədə böyük təcrübəyə malik "AzVirt" MMC məşğul olmuşdur. Hava limanının tikintisinə Prezident İlham Əliyevin bölgəyə səfərindən dərhal sonra başlanılmışdır. Yeni hava limanının uçuş-enmə zolağının uzunluğu 3 min metrdir. Tikintinin getdiyi ərazi döyüş bölgəsi olduğundan, düşmən tərəfindən minalanmışdı və bu amil işlərin sürətinə də təsirsiz qalmamışdı. Belə ki, burada tikinti ilə yanaşı, minalardan təmizləmə işləri paralel gedirdi.

**(davamı 7-ci səhifədə)**

Respublika.- 9 fevral.- 2022- ci il.- S. 1.

# Qarabağın hava qapısı

## Füzuli Beynəlxalq Hava Limanı bölgədə turizmin inkişafına töhfə verəcək

(əvvəli 1-ci səhifədə)

Hava limanının tikintisi sürətlə aparılırdı və bu səbəbdən də qısa müddətdə inşa edilərək istifadəyə verildi. 2021-ci il sentyabrın 5-də aerodroma ilk böyük sınaq uçuşu oldu. Azərbaycan Hava Yollarına məxsus Airbus A340-500 sərnişin təyyarəsi və Silk Way Hava Yollarına məxsus Boeing 747-400 yük təyyarəsi həmin gün uğurlu sınaq uçuşları həyata keçirdi. Bununla da, uçuş-enmə zolağının tam hazırlığı və istismara qəbul edilməsi prosesi yekunlaşdı. Aeroportun ilk sərnişinləri sınaq uçuşunda iştirak edən 100 nəfər media təmsilçisi və ictimai fəaldan ibarət idi. 2021-ci il oktyabrın 26-da isə hava limanının rəsmi açılışı oldu. Açılışda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etmişdi. Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanın və Türkiyənin dövlət rəsmilərinin olduğu Türkiyənin bir nömrəli təyyarəsi elə Ankara-Füzuli hava xətti ilə uçuş edərək, birbaşa Füzuli Beynəlxalq Hava Limanına enmişdi.

Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi əlamətdar hadisə, qalib bir xalqın gücünün təcəssümü idi. Mərasimdə Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər, rəmzi açarlar prezidentlərə təqdim edildi. Sonra hava limanında yaradılan şəraitlə tanışlıq oldu. AZAL-ın prezidenti Cahangir Əsgərov görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3 min, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətinin İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.



Füzuli hava limanı Qarabağın turizm potensialının inkişafına da töhfə verəcək.

2022-ci il yanvarın 24-də Füzuli Beynəlxalq Hava Limanı daha bir dövlət rəsmisini qəbul etdi. İranın yol və şəhərsalma naziri Rüstəm Qaseminin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycanın Füzuli şəhərinə səfəri baş tutdu. İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi iki ölkə arasında bir çox sahələrdə birgə böyük layihələrin olduğunu və səfər çərçivəsində iki ölkə arasında enerji, sənaye, tranzit, kənd təsərrüfatı və digər sahələrdəki layihələr haqda müzakirələr aparıldığını deyib. Səfər çərçivəsində iranlı nazir Azərbaycan rəsmiləri ilə də görüşüb.

Xatırladaq ki, "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin tamamlanması ilə bağlı Birgə Texniki Komissiyaya həvalə edilmiş tapşırıqların icrasının gedişini müzakirə etmək məqsədilə 2022-ci il 18-19 yanvar tarixlərində "Qız qalası" hidroqovşağında Komissiyanın Azərbaycan və İran tərəfindən olan üzvlərinin görüşü keçirilib. Görüşdə "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında" sazişə uyğun olaraq, icrası yekunlaşdırılmış və bundan sonra görüləcək işlərlə bağlı müzakirələr aparılıb, gündəlikdə duran məsələlər üzrə razılıq əldə edilib. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərin elektrik enerjisinə tələbatının ödənilməsi, habelə kənd təsərrüfatı sahələrinin suvarma suyu ilə təminatında xüsusi əhəmiyyətə malik olan "Xudafərin" və "Qız qalası" hidroqovşaq və su elektrik stansiyalarının inşası prosesinin sürətləndirilməsi üçün səylərin artırılması qərara alınıb.

Məlumdur ki, hava limanlarının IATA kodları sərnişin daşımaları üçün böyük əhəmiyyət kəsb edir, bu kodlar aviaşirkətlər, aviabilet satışı üzrə agentliklər, biletləri beynəlxalq təxsisetmə sistemləri və sair tərəfindən istifadə olunur. Daha əvvəl Füzuli hava limanına Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICA) tərəfindən UBBF kodunun verilməsi təsdiq edilib.

Füzuli hava limanı ən yüksək beynəlxalq standart və normalara uyğun tikilib. Hava limanında ICAO-nun bütün tələblərinə əsasən uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün cihazlar üzrə enmə və naviqasiya sistemləri, işıq-texniki, əsas və ikinci dərəcəli radiolakasiya sistemi ilə tam təchiz edilmiş uçuş-enmə zolağı istifadədir. Bu isə Füzuli hava limanına ICAO və IATA standartlarına uyğun uçuşlara başlamasına imkan yaradacaq. Eyni zamanda, dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında da beynəlxalq hava limanlarının tikintisi davam etdirilir. Füzuli hava limanından əlavə, hazırda Azərbaycanda altı beynəlxalq hava limanı fəaliyyət göstərir.

Beləliklə, ən müasir hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

**Z.ABDULLAYEVA,**
**"Respublika".**

Respublika.- 9 fevral.- 2022- ci il.- S. 7.